# *Əlilliyi olan şəxslərin məşğulluğu ilə bağlı qanunvericiliyin analizi və praktiki vəziyyətə dair ARAŞDIRMA SƏNƏDİ*



[1]

[1] https://www.on5yirmi5.com/haber/saglik/yetiskin-sagligi/161812/is-hayatindaki-engelli-sayisi-artti.html

# Mündəricat

**1. Xülasə** ... 3

**2. Giriş** ... 4

**3. Metodologiya** ... 7

**4. Əlilliyi olan şəxslərin problemlərinin təhlili** ... 8

**4.1. Azərbaycan Respublikasının Qanunvericiliyinin beynəlxalq qanunvericiliyə uyğunluğunun analizi** ... 8

**4.2. Azərbaycan Respublikasının Qanunvericiliyində əlilliyi olan şəxslərə aid problemlər** ... 10

**5. Əlilliyi olan şəxslərlə bağlı layihələr** ... 13

**6. Əlilliyi olan şəxslərin məşğulluğuna dəstək istiqamətində xarici təcrübə** ... 14

**7. Nəticə** ... 16

**8. Problemlərin həlli ilə bağlı təkliflər** ... 17

**9. Qısaltmalar** ... 19

**10. Ədəbiyyat siyahısı** ... 19

## 1. Xülasə

Azərbaycanda əlilliyi olan şəxslərin məşğulluğu məsələsi ciddi problemlərdən biridir. Bu baxımdan mövzunun aktuallığını nəzərə alaraq, monitorinq aparmaq qərarına gəldik.

Monitorinqin formatı belə təsnifləndirilmişdir: giriş, monitorinqin aparılma metodologiyası, əlilliyi olan şəxslərin problemlərinin təhlili (qanunvericilikdəki problemlər), əlilliyi olan şəxslərin problemlərinin həlli, bu sahədə maarifləndirmə aparmaq üçün həyata keçirilən layihələr, onların nəticələri, Türkiyədə əlilliyi olan şəxslərin məşğulluğu ilə bağlı proqramlar, Türkiyə təcrübəsinin öyrənilməsi, əldə olunan məlumatlardan nəticə çıxarılması, həm qanunvericilikdə, həm də onun praktikada tətbiqində yanlışlıqların aradan qaldırılması üçün təkliflərin işlənib hazırlanması.

Monitorinqin əsas məqsədi əlilliyi olan şəxslərin problemlərinin üzə çıxarılması və bu problemlərin həlli üçün təkliflər hazırlayaraq onlara dəstək olmaqdır. Monitorinq əlilliyi olan şəxslərin məşğulluğu üzrə xüsusiləşmişdir. Çünki, 620 min nəfərə yaxın əllilliyi olan şəxsin sadəcə 5%-nin işləməsi bu qrupun digərlərindən nə qədər çox asılı olduğunun göstəricisidir.

Məlumatların toplanması üçün həm onlayn araşdırma aparılmış, informasiya sorğusu, ekspertlərlə müsahibədən istifadə olunmuşdur.

Əlilliyi olan şəxslərlə bağlı qəbul olunmuş əsas sənəd Azərbaycan Respublikasının da qəbul etdiyi "Əlilliyi olan Şəxslərin Hüquqları haqqında" Konvensiyadır. Bu Konvensiyanın əsas məqsədi əlilliyi olan şəxslərin cəmiyyət tərəfindən başa düşülməsi, onlara qarşı etik davranışa istiqamətləndirmə, onların ləyaqətlərinin qorunmasına yönəldilib.

Əlilliyi olan şəxslərin problemlərindən danışdıqda onların öz layihə, ideyalarını həyata keçirmə yolunda çətinliklərindən başlayaraq, istirahətləri üçün uyğun şəraitin olmaması daxildir.

Qanunvericilikdə nəzərdə tutulan qaydalar, bu qaydaların həyata keçirilməsi ilə bağlı problemlər analiz olunmuşdur. Nəticədən asılı olaraq, təkliflər hazırlanmışdır.

Monitorinqin yekun prosesi olaraq, ingilis dilinə tərcümə olunub, müxtəlif qurum və sosial təşkilatlara göndərilmişdir.

## 2. Giriş

Fiziki və ya xəstəlikdən doğan qüsurlar nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan şəxs əlilliyi olan şəxs sayılır.

Azərbaycanda əlilliyi olan şəxslərin sayı 620 minə yaxındır.[2]

Əlilliyi olan şəxslərin sadəcə 5%-i işləyir. [3]

Azərbaycanda "Əlilliyin müəyyən olunması meyarlarına dair Əsasnamə"[4]də əlillik ağırlıq dərəcəsinə görə 3 qrupa ayrılıb:

Qruplar arasında ən ağır bilinən 1-ci qrup əlillikdir. 1-ci qrup əlillik təhsilalma, ünsiyyət, uyğunlaşma, öz davranışına nəzarətetmə, özünə xidmət etmə, hərəkət etmə və əmək fəaliyyətinin elə məhdudlaşdırılmasıdır ki, əlilliyi olan şəxsin kənar şəxsin yardım və qulluğuna ehtiyacı var. Bu qrupun təyin olunduğu əlilliyi olan şəxslər ya xüsusi əmək şəraitində, ya da evdə müxtəlif işlərdə çalışa bilərlər.

2-ci qrup əlilliyi olan şəxslər 1-ci qrup əlilliyi olan şəxslərdən fərqli olaraq, başqa şəxslərin yardım və ya qulluğuna ehtiyacı olmur.

---

[2] http://femida.az/az/news/95831/azerbaycanda-dovletdan-yardim-alan-620-min-elil-var

[3] https://report.az/sosial-mudafie/azerbaycanda-elillerin-is-problemi-qanunvericiliyin-telebi-ve-realliqlar-arasdirma/

[4] http://www.e-qanun.az/framework/31771

3-cü qrup əlillik sosial uyğunlaşma, ünsiyyət, hərəkət, əmək fəaliyyətinin məhdudlaşmasından ibarətdir. Əmək fəaliyyətinin məhdudlaşması məfhumunda görüləcək işin həcmi, şəxsin professional əməyinin çətinləşməsi nəzərdə tutulur.

"Əlillərin sosial müdafiəsi haqqında"[5] Azərbaycan Respulikası Qanunun 24-cü maddəsində deyilir ki, əlilliyi olan şəxslərin yaradıcılıq, istehsal qabiliyyətinin həyata keçirilməsi məqsədi və fərdi bərpa proqramları nəzərə alınmaqla, onların adi iş şəraiti olan müəssisələrdə, idarələrdə və təşkilatlarda, əlilliyi olan şəxslərin əməyini tətbiq edən ixtisaslaşdırılmış müəssisələrdə, sexlərdə və sahələrdə işləmək, habelə sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməyən başqa fəaliyyət ilə məşğul olmaq hüququ təmin edilir.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında"[6] Konvensiyanın 27-ci maddəsində qeyd olunur ki, iştirakçı dövlətlər digər şəxslərlə bərabər, əlilliyi olan şəxslərin əmək hüququnu tanıyırlar; bu hüquq əmək bazarının və istehsalat mühitinin açıq, inkluziv və əlverişli şəraitdə əlilliyi olan şəxsin sərbəst seçdiyi və ya razılıq verdiyi əməyi ilə özünü təmin etmək hüququnu ehtiva edir.

Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi qaydası 2001-ci ildə müəyyən olunub. Bu qanuna görə, kvota müəssisələrdəki işçilərin orta siyahı sayının 5 faizindən çox olmamaq şərtilə müəyyən edilir:

- işçilərinin sayı 25-dən 50-dək olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 3 faizi (bir iş yerindən az olmamaqla) miqdarında; bu halda həmin iş yerlərindən biri əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər üçün nəzərdə tutulur;
- işçilərinin sayı 50-dən 100-dək olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 4 faizi miqdarında (işçilərin orta illik siyahı sayının 2 faizi

[5] http://e-qanun.az/alpidata/framework/data/7/f_7652.htm
[6] http://www.e-qanun.az/framework/39591

əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər üçün nəzərdə tutulmaqla);

- işçilərinin sayı 100-dən çox olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 5 faizi miqdarında (işçilərin orta illik siyahı sayının 2,5 faizi əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər üçün nəzərdə tutulmaqla).

Bununla yanaşı, dövlət əlilliyi olan şəxsləri işə qəbul etmələri üçün müəsissələrə bir sıra güzəşt və imtiyazlar da verir.

İşləyənlərin ümumi sayının azı 30 faizi əlilliyi olan şəxslərdən ibarət olan müəssisələr, idarələr və təşkilatlar güzəştli maliyyələşdirmə və maddi-texniki təminat hüququna malikdirlər. Belə müəssisələrə, idarələrə və təşkilatlara mənfəət vergisinin 50 faizi məbləğində güzəşt verilir.

İşləyənlərin ümumi sayının (əvəzçilik üzrə işləyənlər nəzərə alınmadan) azı 50 faizi əlilliyi olan şəxslərdən ibarət olan müəssisə, idarə və təşkilat mənfəət vergisindən azad edilir.

Əlilliyi olan şəxslərin əmək bazarına çıxışının dəstəklənməsi və məşğulluğunun təminatı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin öhdəliyindədir. Bu istiqamətdə nazirlik digər beynəlxalq və yerli qurumlarla əməkdaşlıq edərək müxtəlif layihələr həyata keçirməkdədir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) İnkişaf Proqramı ilə birlikdə "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inkluziv və layiqli iş yerlərinin yaradılması", BP və "British Council"la "Əlilliyi olan şəxslərin məşğulluq imkanlarının artırılmasına dəstək"[7], "Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Proqramı",

[7] https://www.bp.com/az_az/caspian/press/pressreleases/employability_skills_for_people_with_disabilities1.html

“Azərbaycanda İnnovasiya və Məşğulluğun İnkişafı”, “Əlilliyi olan insanların məşğulluq problemlərinin həlli ilə yoxsulluq riskinin azaldılması”, “Sosial Müdafiənin İnkişafı” layihələrinin həyata keçirilməsinin başlıca məqsədi əlilliyi olan şəxslərin peşə bacarıqları qazanmalarına yardım etmə, inkluziv cəmiyyətin yaradılmasına dəstəkdən ibarətdir.

Əlilliyi olan şəxslərin məşğulluğu ilə bağlı həyata keçirilən bu layihələrin sayı azdı və onların problemlərini həll edəcək təsirdə deyil. Əlilliyi olan şəxslərin işlə təmin oluna bilməməsi onların maddi durumlarını daha da çətinləşdirir.

I qrup əlilliyə görə sosial müavinət (150 manat) və təqaüd (100 manat+50 manat) formasında ümumilikdə 300 manat, II qrup əlilliyə görə 130 manat, III qrup əlilliyə görə 110 manat təşkil edir.[8]

Əlilliyi olan şəxs üçün ayrılmış müavinətlərin miqdarı 2019-cu il üçün müəyyən olunmuş ölkə üzrə yaşayış minimumundan (180) belə aşağı miqdardadır.

Əlilliyi olan şəxslərin məşğulluğunun təmin olunması üçün "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası"[9] müəyyən olunmuşdur. Lakin bu qaydaların tətbiqində çatışmazlıqlar mövcuddur.

Araşdırmanın aparılmasının əsas məqsədi əlilliyi olan şəxslərin məşğulluq problemlərinin qabardılması, kvota qaydasına müəssisələr tərəfindən əməl olunması üçün alternativlərin müəyyən olunması, təkliflərin dövlət qurumlarına göndərilməsidir.

## 3. Metodologiya

[8] https://report.az/sosial-mudafie/birinci-qrup-elillerin-alacagi-muavinetin-meblegi-aciqlandi/
[9] http://e-qanun.az/alpidata/framework/data/11/f_11456.htm

Əlilliyi olan şəxslərin problemləri, ən əsası məşğulluq problemlərini öyrənmək üçün onlayn araşdırılma aparılmış, məlumatlar analiz edilmişdir. Bu sahədə mövcud qanunvericilik incələnmişdir. Dövlət və qeyri-dövlət qurumlarının bu sahədə gördüyü işlərin yekunu olaraq hazırladıqları hesabatlar əldə olunmuş, həyata keçirilən layihələrin nəticələri gözdən keçirilmişdir. Xüsusi qayğıya ehtiyacı olan insanların məşğulluğu ilə bağlı kvota qaydasına əməl olunmasına dair məlumatların toplanması üçün ƏƏSMN-ə, Vergilər Nazirliyinə informasiya sorğuları göndərilmişdir. Təəssüf ki, bu barədə neqativ, yaxud pozitiv cavab alınmamışdır. Eyni zamanda, xarici təcrübə ilə tanış olmaq üçün Türkiyənin sosial müdafiə sistemi ilə bağlı araşdırma aparılıb.

Əlilliyi olan şəxslər üçün onların məşğulluğunun əhəmiyyətini anlamaq üçün əlilliyi olan şəxslər və onların ailələri ilə söhbətlər aparılıb. Ekspertlərlə bu sahədə mövcud olan problemlər, resursların azlığı ilə bağlı danışılıb. Bu sahədə fəaliyyət göstərən qurum rəhbərlərinin fikirləri, təklifləri alınıb. Bunun əsasında araşdırma sənədi hazırlanıb.

## 4. Əlilliyi olan şəxslərin problemlərinin təhlili

### 4.1. Azərbaycan Respublikasının Qanunvericiliyinin beynəlxalq qanunvericiliyə uyğunluğunun analizi

Xüsusi qayğıya ehtiyacı olan insanların problemləri həyata keçirilən sosial layihələrə, dövlətin gördüyü tədbirlərə baxmayaraq, öz həllini tapa bilmir. Başlıca olaraq cəmiyyət əlilliyi olan şəxsləri qəbul edə bilmir. Onları ilk gördüyündə qulaq çəkmək, şəfa üçün dualar etmək onların psixologiyasına mənfi təsir edə bilir. Hətta onlara qoyulmuş “***şikəst”, “kar”, “kor”*** kimi qeyri-etik adlar onların özünə inamlarını da qırır.

BMT tərəfindən "Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya"nın qəbul olunması əlilliyi olan şəxslərin bu problemlərinin həllinə, onların ləyaqətlərinin qorunmasına istiqamətlənib. Konvensiyaya görə, dünyada əlilliklə bağlı sosial və tibbi model mövcuddur. Ənənəvi qəbul edilmiş tibbi model əlilliyin məhz şəxsin daxilində yaranan "qüsurlar", "zədələr" və xəstəliklər sayəsində disfunksiyaların aşkarlanması və həmin şəxslərin "əlillər" qrupuna daxil olmasını iddia edirdi. Belə şəxslər "qüsurlu" və tibbi korrektəyə möhtac olan insanlar kimi qələmə verilirdi. Sosial modeldə isə, əlillik ətraf mühitin çoxsaylı amillərinin təsiri nəticəsində əlilliyi olan şəxslərin məhdudiyyətlərlə və maneələrlə rastlaşdığı vəziyyət kimi qəbul edilir. Sosial modeldə əlilliyi olan şəxslərin "düzəlməsinə", "korreksiyasına" ehtiyac duyulmur, əksinə, ətraf mühitin həmin şəxslərin məxsusi ehtiyaclarına uyğunlaşdırılmasını nəzərdə tutur. Sosial modeldə əlilliyi olan şəxslərə qarşı mərhəmət və şəfqət istənilmir, cəmiyyət üzvlərinin özlərini onların yerinə qoyması, onları başa düşməsi və bütün vətəndaşlar kimi onların da tam bərabərhüquqlu şəxs olması nəzərdə tutulur. Bu modelin təməlini müyəssərlik və müstəqil həyat prinsiplərinin tətbiqi təşkil edir. Bu prinsiplərə əsasən, ətraf mühit obyektləri, xidmətləri və ehtiyacları əlilliyi olan şəxslər üçün əlçatan olmalıdır, gündəlik həyatda isə onlar imkan daxilində özlərini idarə edib, müstəqil şəkildə qərarları qəbul etməli və heç kəsdən asılı olmamalıdır. Konvensiyanın müddəalarına əsasən, əlilliyi olan şəxslərə qarşı bütün ayrıseçkilik formaları ləğv olunmalı, onların hüquq və azadlıqları təmin olunmalı, ləyaqətləri və dəyərləri qorunmalıdır.

Konvensiyanın 8-ci maddəsinin 1.a) bəndində əlillik məsələlərində, ailə səviyyəsi də daxil olmaqla, bütün cəmiyyətin maariflənməsini yüksəltmək və əlilliyi olan şəxslərin hüquqlarına və ləyaqətinə hörmət olunmasını möhkəmləndirmək və 2.ii) bəndində əlilliyi olan şəxslər haqqında müsbət təsəvvürlərin həvəsləndirilməsi və onların cəmiyyət tərəfindən daha dərindən

başa düşülməsi kimi göstərilən öhdəlikləri qeyd etmək olar. Bu öhdəliklərə əsasən, əlilliyi olan şəxslərlə bağlı "tipik", "atipik" və "norma"nın əksini təşkil edən "anormallıq" terminləri istifadə edilməməlidir. Ümumiyyətlə, sosial modeldə əlilliyi olan şəxslərə qarşı alçaldıcı və təhqiramiz sözlər və ifadələr işlənilməməlidir.

Konvensiyanı qəbul etmiş Azərbaycan Respublikası hətta qanunvericilik sistemində belə bu qaydalara əməl etmir.

“Əlillərin sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunun adı hələ də Konvensiyanın tələblərinə uyğunlaşdırılmayıb.

### 4.2. Azərbaycan Respublikasının Qanunvericiliyində əlilliyi olan şəxslərə aid problemlər

Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının Qanununun 13.1. – ci maddəsində qeyd olunur ki, Azərbaycan Respublikasının ərazisində və yaşayış məntəqələrində infrastruktur obyektlərinin Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq layihələndirilməsi və tikintisi zamanı universal dizayn əsasında bu obyektlərin əlilliyi olan şəxslərə maneəsiz müyəssər olması, onların infrastrukturlardan sərbəst istifadə etməsi üçün ağlabatan uyğunlaşma təmin edilir.

Əmək Hüquqları Müdafiəsi Liqasının sədri Sahib Məmmədov isə hesab edir ki, əlilliyi olan şəxslərə verilən müavinətlər onların ehtiyaclarına cavab vermir. Sahib Məmmədov[10] hesab edir ki, büdcədən vəsait ayrılır dedikdə, yalnız pensiyaların, sosial müavinətlərin verilməsi nəzərdə tutulmur: “Bu gün şəhərdə infrastruktur işləri gedir, amma bu işlər görülərkən fiziki cəhətdən məhdudiyyətli insanlar nəzərə alınmır. Normal ölkələrdə isə praktika başqadır. Məsələn, Amerika qanunvericiliyinə görə, əlilliyi olan şəxslər üçün normal

[10] https://www.xural.com/%E2%80%9Cisl%C9%99m%C9%99k-ist%C9%99yir%C9%99m%E2%80%9D/

şərait yaratmayan qurumlar büdcə yardımlarından məhrum olunurlar. Azərbaycanda bu gün dövlət qurumlarında, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin binasında belə əlilliyi olan insanların hərəkəti üçün şərait yoxdur".

Müəyyən şərait yaradılsa da, özəl qurumlarda bu şərait yoxdur, çünki özəl quruma bu, lazım deyil, məhz dövlət vətəndaşının rahatlığını təmin etməkdə maraqlı olmalıdır.

Buna baxmayaraq, hətta əlilliyi olan şəxslərin sıxıntıları bununla bitmir. Sosial müavinətlərin dəyəri ölkə üzrə yaşayış minimumundan az olduğu halda, bu insanların, sadəcə, müavinətlərlə dolanması mümkünsüzdü. "Gülsəm" Əlillərin Reabilitasiyası İctimai Birliyinin rəhbəri Gülnarə Səlimova deyir:[11]

"Nəzərə alsaq ki, hələ son aylarda əlilliyi olan şəxslər üçün sosial müavinətlərin miqdarı artılıb, amma bu belə bir əlilliyi olan şəxsin ehtiyaclarını ödəməyə bəs etmir. Çünki onun gündəlik qidası, geyimi, kommunal xidmətləri, iynə dərmanı var. Hələ əlil arabalarının alınması bir ayrı məsələdir. Burada verilən arabalar keyfiyyətsizdir. Buna görə də arabaların alınmasını Gürcüstana gedən insanlara tapşırırıq. Bunlar da əlavə xərclər tələb edir. Yenə işlə təminat mümkün olsaydı, öz ehtiyaclarımızı ödəyə bilərdik".

"Əlillərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununun (əlillərin əmək şəraiti ilə bağlı) 29-cu maddəsində qeyd olunur ki, əlilliyi olan şəxslərin iş vaxtından artıq işlərə, istirahət günləri və gecə vaxtı işləməyə cəlb edilməsinə yalnız onların razılığı ilə bu şərtlə yol verilir ki, belə işlər tibbi tövsiyələrdə qadağan edilməsin. Həmçinin, əlilliyi olan şəxslərin istirahət hüququ ilə bağlı məsələyə gəldikdə isə (əlillik qruplarından və səbəblərindən asılı olmayaraq) illik məzuniyyətlər mövcud qanunvericiliklə müəyyən edilmiş minimum məzuniyyət müddətinin iki mislindən az olmayaraq verilir.

[11] https://www.udpo.az/read.php?lang=1&content=1148

Əlilliyi olan şəxslərə (əlillik qruplarından və səbəblərindən asılı olmayaraq) azı bir təqvim ayı müddətində ödənişsiz məzuniyyət verilir.

1 və 2-ci qrup əlilliyi olan şəxslər üçün həftədə 36 saatdan çox olmayan qısaldılmış iş vaxtı müəyyən edilir.

Hüquqşünas Sahib Məmmədovun fikrincə, əlilliyi olan şəxslərin işə götürülməmə səbəbləri bu imtiyazlardır: "Sağlam insanlara 21 gün, əlilliyi olan şəxslərə 41 gün məzuniyyət verilir. Bu da işəgötürənlərə sərf etmir. Xarici dövlətlərdə bu məsələni işəgötürənlər deyil, müvafiq orqanlar, fondlar həll edir. Onlara verilən əlavə vəsaitin xərci həmin fond hesabına ödənilir. Ona görə də, bizdə işəgötürənlər əlilliyi olan şəxsləri işə götürməyi sevmirlər. Sadəcə "iş yoxdur" deyib özlərindən uzaqlaşdırırlar".[12]

Ekspertin sözlərinə görə, müəssisə rəhbərlərinin bu qaydaya əməl etməmə səbəblərindən biri bilgisizlik və ən əsası cəzasızlıq mühitinin olmasıdır: “Nə vaxtsa hər hansı bir təşkilat əlilliyi olan şəxslər üçün nəzərdə tutulan kvotanı yerinə yetirmədiyinə görə cinayət məsuliyyətinə cəlb olunubmu? Xeyr!”.

Bu mövzuda kvotaya əməl edən və etməyən şirkətlərin sayı və onlarla bağlı həyata keçirən cəza tədbirlərinin nəticəsi barədə məlumat əldə etmək üçün Dövlət Məşğulluq Xidmətinə informasiya sorğusu göndərilməsinə baxmayaraq, qurumdan bu məsələnin onların səlahiyyətlərinə aid olmadığını, eyni zamanda məlumatların məxfi olduğu üçün paylaşa bilməyəcəklərini bildirdilər.

Keçmiş Baş Məşğulluq İdarəsinin rəis müavini Şahbaz Xələfova[13] görə əlilliyi olan şəxslərin işlə təmin olunması ilə bağlı əsas problem onların sertifikatlarında "əmək qabiliyyəti yoxdur" qeydinin olması olub. Bu onların işə qəbul olunmasında çətinlik yaradır: "Sahibkarlar qanunvericiliklə tənzimlənən

[12] https://nezermedia.az/manset/52926-qanuna-deyishiklik-evezine-beyinlere-deyishiklik-edilmelidir-elillerin-ish-problemi.html
[13] https://news.milli.az/society/182225.html

kvotalara əməl edirlər. Etməyə də bilməzlər. Çünki hər hansı şirkət bu kvotalara əməl etmirsə, onlar müvafiq qaydada cərimələnirlər. Sadəcə, problem ondadır ki, əvvəlki dövrlərdən əlillik dərəcəsi alanların, birinci, ikinci qrup əlilliyi olan şəxslərinin hamısının sertifikatlarında əmək qabiliyyətsiz olduğu yazılıb. Bu zaman biz sahibkara və yaxud dövlət müəssisəsinə deyə bilmərik ki, bunu niyə işə götürmürsən? Çünki, Əmək Məcəlləsində göstərilir ki, əmək qabiliyyəti olmayan insanın məşğulluğu təmin edildikdə, hər hansı məsuliyyət müəssisənin üzərinə düşür. Ona görə müəssisə rəhbərləri, əlbəttə, qanundan qorxduğuna görə belə insanları işlə təmin etmirlər".

## 5. Əlilliyi olan şəxslərlə bağlı layihələr

2018-ci ilin fevral ayında "BP" şirkəti və onun tərəfdaşları tərəfindən məşğulluq xidməti orqanlarında qeydiyyatda olan iş axtaran və işsiz şəxslər üçün "Əlilliyi olan Şəxslərin Məşğulluq Qabiliyyətlərinin Aartırılması layihəsinin reallaşmasına başlanılmışdır.[14]

Əsas məqsədi əlilliyi olan şəxslərə yeni bacarıqlar qazandırmaq olan layihədə 86 nəfərin sosial, komputer, ingilis dili bacarıqlarının artırılması planlanmışdı. Ümumi dəyəri 400000 AZN-dən artıq olan layihənin sonunda 22 iştirakçı müxtəlif təşkilatlarda və ya özünüməşğulluq proqramı vasitəsilə işlə təmin olunub (buraya həmçinin proqramdan əvvəl işi olan şəxslər də daxildir). Səkkiz iştirakçı Bakının müxtəlif mehmanxanalarında təcrübə proqramlarında iştirak edib, 10 nəfərədək iştirakçı qısamüddətli distant (məsafədən) işlər və məşğulluq üzrə ilkin təkliflər alıb.

[14] https://anews.az/az/elilliyi-olan-sexslerin-mesulluq-imkanlarinin-artirilmasina-destek/

Bu sahədə qəbul olunmuş və həyata keçirilmiş layihələrin sayı az olmaqla bərabər, həyata keçirilmiş layihələrin nəticələri barədə ətraflı məlumatlar ƏƏSMN-nin illik hesabatlarında belə yer almayıb.

## 6. Əlilliyi olan şəxslərin məşğulluğuna dəstək istiqamətində xarici təcrübə

Türkiyədə əlilliyi olan şəxslərin məşğulluğuna dəstək üçün onlar üçün xüsusi iş yerlərində çalışmaları, fərdi fəaliyyət aparmaları, koorparativ iş yerlərində çalışmaları, evdə işləmək, ancaq əlilliyi olan şəxslərin işlədiyi iş yerlərinin yaradılması, kvota sistemi üzrə işə götürülmə, müəssisə rəhbərlərinin əlilliyi olan şəxsləri işə götürmələri üçün məcbur edilməsi kimi formalar müəyyənləşdirilib.

Türkiyədə 30.05.2006-cı il tarixində qəbul edilmiş "Qorunan İş Yerləri haqqında" Əsasnamədə qorunan iş yerləri "əmək bazarına qazandırılma, əlilliyi olan şəxslərə peşə reabilitasiyası vermək məqsədilə, dövlət tərəfindən maddi dəstəklənən, iş yeri mühitinin xüsusi olaraq qurulduğu iş yerləri" deyə müəyyən olunub. Əsasnaməyə görə, ən az 40% zehni inkişaf məhdudiyyətli; ruhi problemləri olan və fiziki məhdudiyyətli olmaq, digər əlillik növlərindən isə 60%-dən daha çox əlillik almaq, İŞKUR platformasında qeydiyyatdan keçmək, 15 yaşını tamamlamaq əsas şərtlərdəndir.[15]

İşləyən əlilliyi olan şəxslərin sayı (2011-2015)

[15] Türkiye'de Engellilere Yönelik İstihdam Politikaları: Sorunlar ve Öneriler, 2018

| | | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|
| Engelli Çalıştırmakla Yükümlü 50+ İşyeri Sayısı | Kamu | 1.004 | 979 | 890 | 809 | 844 |
| | Özel | 15.118 | 16.980 | 17.596 | 17.773 | 17.144 |
| | Toplam | 16.122 | 17.959 | 18.486 | 18.582 | 17.988 |
| Çalıştırmakla Yükümlü Olduğu Engelli Sayısı | Kamu | 10.496 | 10.246 | 9.514 | 8.417 | 8.432 |
| | Özel | 86.607 | 97.322 | 97.689 | 101.823 | 99.262 |
| | Toplam | 97.103 | 107.568 | 107.203 | 110.240 | 107.694 |
| Engelli Çalışan Sayısı | Kamu | 12.347 | 12.358 | 11.804 | 10.422 | 10.696 |
| | Özel | 71.088 | 77.547 | 80.434 | 84.706 | 84.370 |
| | Toplam | 83.435 | 89.905 | 92.238 | 95.128 | 95.066 |
| Engelli Açık Kontenjan Sayısı | Kamu | 1.164 | 931 | 700 | 712 | 472 |
| | Özel | 20.789 | 25.250 | 23.075 | 23.637 | 22.037 |
| | Toplam | 21.953 | 26.181 | 23.775 | 24.349 | 22.509 |
| Engelli Kontenjan Fazlası Sayısı | Kamu | 3.015 | 3.043 | 2.990 | 2.717 | 2.736 |
| | Özel | 5.270 | 5.475 | 5.820 | 6.520 | 7.145 |
| | Toplam | 8.285 | 8.518 | 8.810 | 9.237 | 9.881 |

**Kaynak:** İŞKUR, (Çevrimiçi) http://www.iskur.gov.tr/tr-tr/kurumsalbilgi/ istatistikler, 25.02.2016

Dünyada əlilliyi olan şəxslərin əmək bazarına daxil olmaları üçün ən çox yayılmış yollardan biri kvota sistemidir. Bu dövlət tərəfindən çoxlu sayda əlilliyi olan şəxsin şirkətlərdə məcburi işlədilməsidir. Bu sistemdə nə qədər əlilliyi olan şəxsin çalışması şirkət işçilərinin sayına uyğun müəyyən olunur və bu ölçülər hər ölkəyə görə fərqlidir. Bu qaydaya əməl etməyən şirkətlərə pul cərimələri kəsilir.

Kvota sistemi ilk olaraq 1919-cu ildə Almaniyada tətbiq olunub, daha sonra 1920-ci ildə Avstriyada, 1921-ci ildə İtaliyada, 1923-cü ildə Fransada tətbiq olunub.

Almaniyada ən azı 20 işçisi olan şirkətlərdə 5% əlilliyi olan şəxsin işə alınması məcburi idi. Fransada işçilərinin sayı ən azı 20 nəfər olan şirkətlərdə 6%, İtaliyada 15-35 arası işçisi olan yerlərdə bir əlilliyi olan şəxs, 36-50 arası işçi olduqda iki əlilliyi olan şəxs, 50-dən çox işçi qrupu olan müəssisələrdə isə 7% qədərində əlilliyi olan şəxs işə götürməlidir. Çexiya Cümhuriyyətində ən az 25 işçisi olan müəssisələrdə 4%, İspaniyada ən azı 50 işçisi olan iş yerlərində 2%, Cənubi Koreyada 300-dən çox işçisi olan iş yerləri üçün 2% miqdarında əlilliyi olan şəxsin işlədilməsi kvotası tətbiq edilir.

## 7. Nəticə

Əldə olunmuş məlumatlara əsasən, kvotaya əməl etməyən müəssisələrə yalnız pul cərimələrinin tətbiq olunması əsas problemlərdən biridir. Belə ki, əlilliyi olan şəxslərin məzuniyyəti, iş saatları və digər məsələlərlə bağlı onlara olunan güzəştlər, əlilliyi olan işçilərin digərlərinə nisbətdə daha az, səmərəsiz işləyəcəyi düşüncəsi şirkət sahiblərini onları işə götürməkdən çəkindirir. Bunun qarşılığı olaraq müəyyən miqdar cərimə ödəyirlər. Nəticədə isə əlilliyi olan şəxslərin yenə də məşğulluğu təmin olunmur, müavinətdən asılı qalırlar. Ekspertlərin də düşüncələrinə görə, bunu aradan qaldırmaq üçün ən yaxşı yollardan biri tətbiq olunan cərimə miqdarının artırılmasıdır.

Əlilliyin təsdiqi ilə bağlı verilən vərəqədə əlilliyi olan şəxsin əmək qabiliyyətli olub olmaması yer alır. İşə götürən buna əsasən əlilliyi olan şəxsi işə götürməkdən imtina edir. Əmək Məcəlləsində isə əmək qabiliyyətli olmayan şəxsin qorunması ilə bağlı şirkətlərin üzərinə qoyulan məsuliyyət onların işə götürülməməsinə birbaşa təsir edir. Buna baxmayaraq, 1-ci qrup əlillik anlayışında bu şəxslərin evdə, xüsusi yaradılmış şəraitdə müxtəlif işlərdə çalışa bildikləri qeyd olunur.[16]

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev əlilliyin ağırlıq dərəcəsinə görə qruplara ayrılmasının ləğv olunması və bununla bağlı yeni konsepsiyanın hazırlanması barədə məlumat verib: "Əlillərlə bağlı yeni konsepsiya hazırlanacaq. Bu gün 52 növ sosial müavinət var. Onlar unifikasiya olunacaq. Eyni zamanda, əlillik meyarları dəyişəcək. Çünki I, II, III qrup əlillik sovet vaxtından qalan anlayışdır. Bütün dünyada əlillik əmək qabiliyyətini və ya özünəqulluq qabiliyyətini itirmə faizi ilə müəyyən olunur. Ona görə bu

[16] http://e-qanun.az/framework/31771

dəyişikliklər ediləcək ki, kimlərə müavinət ödənilsin. Məsələn, bu gün III qrup əlillərə 55 manat məbləğində vəsait ödənilir. Bu müavinətin ödənilib-ödənilmədiyini işçi qrup müəyyən edəcək. Artıq dünya təcrübəsinə uyğun olaraq araşdırma aparılır. Bu çox böyük bir işdir”. [17]

Meyarların dəyişdirilməsi ideyası dilə gətirilsə də, hazırlanmış qanunvericilik layihəsi hələ də yoxdur. Meyarların dəyişdirilməsi əlilliyi olan şəxsləri ağırlıq dərəcəsinə görə deyil, əlilliyin səbəbindən asılı olaraq fərqlənməsinə görə müəyyən edilməsi nəzərdə tutulur.

Türkiyədə əlillik zehni; fiziki; görmə; eşitmə məhdudiyyəti; öyrənmə problemi; spastik məhdudiyyət; diqqət əksikliyi, hiperaktivlik; inkişaf pozğunluğu; danışma məhdudiyyəti kimi 9 qrupa bölünür. Bu cür qruplaşma əlilliyi olan şəxsin əlilliyinin ona məhdudiyyət yaratmayacağı bir işdə çalışması üçün işə götürülməsinə şərait yaradar.

İşləməyən əlilliyi olan şəxslər xüsusi şərtlər daxilində işsizlik müavinəti alırlar. Çalışan əlilliyi olan şəxslərin maaşları isə adətən bu işsizlik müavinətinin miqdarına yaxın olur. Bu məqamda əlilliyi olan şəxslər çalışıb pul qazanmaqdansa, işsizlik müavinətini seçirlər. Bu da passiv kütlənin yaranmasına səbəb olur. Halbuki əlilliyi olan işləyən şəxsə həm də əvvəlki işsizlik müavinəti verilərsə, onların da məşğul olmaları üçün motivasiyaları artar.

## 8. Problemlərin həlli ilə bağlı təkliflər

1. Əlilliyi olan şəxslərin hüquqlarını pozan şəxslərə qarşı daha sərt cəzaların müəyyən olunması, cərimələrin artırılması.

[17] http://www.xezerxeber.az/%C9%99n_%C3%A7ox_oxunan/226154.html

Əmək Məcəlləsində, əlilliyi olan şəxslərin məşğulluğu ilə bağlı qanunlarda onlar üçün müəyyən olunan pozitiv ayrı-seçkiliklər müəssisə rəhbərlərini onları işə götürməkdən çəkindirir. Bunun qarşılığında kiçik miqdarda müəyyən olunan cərimələri ödəyib canlarını qurtarırlar. Bunun aradan qaldırılması üçün effektiv olacağını düşünülən yollardan biri cərimə miqdarının artırılması ola bilər.

2. Əlilliyi təsdiq edən sənəddə əmək qabiliyyətli olub olmamasının qeyd edilməməsi.

Əgər əlillik anlayışı müəyyən olunarkən hətta 1-ci qrup əlilliyi olan şəxslərin belə evdə, xüsusi şəraitdə çalışa bilməsi göstərilirsə, bu əlillik vərəqəsində əmək qabiliyyətli olmamasının qeyd olunması işə götürənlərin məsuliyyəti üzərindən atmalarına şərait yaradır. Bu hissənin qeyd olunan vərəqədə yazılmaması daha çox əlilliyi olan şəxsin işləməsinə şərait yaradar.

3. Əlillik meyarlarının dəyişdirilməsi prosesinin sürətləndirilməsi.

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev 14.11.2018-ci il müsahibəsində əlillik meyarlarının dəyişdirilməsi ilə bağlı yeni konsepsiyanın yaradılacağı ilə bağlı məlumat verib. Buna əsasən, əlillik 1, 2, 3-cü qruplara deyil, dünya təcrübəsində olduğu kimi görmə, eşitmə və s. məhdudiyyətli olaraq qruplara bölünəcək. Nazirin bu açıqlamasının üzərindən 8 ay keçməsinə baxmayaraq, hələ də qanun layihəsi, əsaslı bir addım müəyyən olunmayıb. Bununla bağlı əsaslı addımların atılması Azərbaycan Respublikası Qanunvericiliyinin dünya təcrübəsinə uyğunlaşdırılması prosesini sürətləndirər.

4.Əlilliyi olan şəxslər işə düzəldikdə işsizliyə görə onlara verilən müavinət saxlanılması (verilməsinin davam etdirilməsi).

Əməyinin nəticəsi olaraq az gəlir qazanması insanları ələ baxımlı olmağa daha tez yönləndirir. İnsanlar əziyyətli pul qazanmaqdansa əziyyətsiz pul qazanmağı

daha üstün tuturlar. İşləmədikləri üçün aldıqları işsizlik müavinəti qazanacağı gəlirlə təxminən eyni olacağına görə, işsizlik müavinətini almağı daha asan hesab edirlər. Əgər, gəlir ilə birlikdə müavinət verilərsə, həm onlar ehtiyaclarını daha sərbəst ödəyər, həm də cəmiyyətin daha aktiv fərdinə çevrilərlər.

## 9. Qısaltmalar

1. BMT-Birləşmiş Millətlər Təşkilatı
2. BP- British Petroleum
3. ƏƏSMN-Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi

## 10. Ədəbiyyat siyahısı

1. https://www.on5yirmi5.com/haber/saglik/yetiskin-sagligi/161812/is-hayatindaki-engelli-sayisi-artti.html
2. http://femida.az/az/news/95831/azerbaycanda-dovletdan-yardim-alan-620-min-elil-var
3. https://report.az/sosial-mudafie/azerbaycanda-elillerin-is-problemi-qanunvericiliyin-telebi-ve-realliqlar-arasdirma/
4. http://www.e-qanun.az/framework/31771
5. http://e-qanun.az/alpidata/framework/data/7/f_7652.htm
6. http://www.e-qanun.az/framework/39591
7. https://www.bp.com/az_az/caspian/press/pressreleases/employability_skills_for_people_with_disabilities1.html
8. https://report.az/sosial-mudafie/birinci-qrup-elillerin-alacagi-muavinetin-meblegi-aciqlandi/
9. http://e-qanun.az/alpidata/framework/data/11/f_11456.htm

10. https://www.xural.com/%E2%80%9Cisl%C9%99m%C9%99k-ist%C9%99yir%C9%99m%E2%80%9D/
11. https://www.udpo.az/read.php?lang=1&content=1148
12. https://nezermedia.az/manset/52926-qanuna-deyishiklik-evezine-beyinlere-deyishiklik-edilmelidir-elillerin-ish-problemi.html
13. https://news.milli.az/society/182225.html
14. https://anews.az/az/elilliyi-olan-sexslerin-mesulluq-imkanlarinin-artirilmasina-destek/
15. Türkiye'de Engellilere Yönelik İstihdam Politikaları: Sorunlar ve Öneriler, 2018
16. http://e-qanun.az/framework/31771
17. http://www.xezerxeber.az/%C9%99n_%C3%A7ox_oxunan/226154.html
18. http://cesd.az/new/wp-content/uploads/2016/07/CESD_EU_Elillerin_Sosial_Mudafiesi.pdf

Sənəd **Demokratik Təşəbbüslər İnstitutunun (IDI)** apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhvə verən hər kəsə dərin təşəkkürünü bildirir.

***Məlumatlardan istifadə edərkən IDI -yə istinad etmək zəruridir.***

**Əlaqə məlumatları:**

Tel: +99455 234 76 76

Web: www.idi-aze.org

E- poçt: idi.azerbaijan@gmail.com

Facebook: www.facebook.com/DTI.IDI